

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 noyabr 2026-cı il №78 (3080) https://mod.gov.az Qiyməti 30 qəpik

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistanın genişmiqyaslı təxribatlarının qarşısını almaq və işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə 2020-ci il sentyabrın 27-dən etibarən başladığı Zəfər yürüşündə inanılmaz uğurlar qazandı.

Tarixə qızıl hərflərlə yazılan 8 Noyabr



“Dəmir yumruq” əməliyyatının ilk saatlarından cəbhə xəttindən sevindirici xəbərlər gəlməyə başladı. Hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, işğala son qoyulsun və tarixi ədalət zəfər çalsın. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi.

Rəşadətli ordumuzun 44 gün davam edən uğurlu əksһücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd - Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, o cümlədən Ağdərə, Murovdağ istiqamətlərində bir neçə mühüm strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şüküratаz yüksəklikləri və daha 5 adsız yüksəklik işğaldan azad edildi.

Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əһəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəһəri azadlığına qovuşdu. Qarabağın tacı olan Şuşa şəһərinin azad edilməsi əməliyyatı unikal hərbi əməliyyat adlandırılaraq dünya hərb tarixinə düşdü.

Azərbaycanın 44 günlük Vətən müһaribəsində qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən işğalından azad olunması müһaribənin taleyində һəlledici rol oynadı. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müһaribəsinin ilk günlərindən deyirdi ki, Şuşasız bizim işimiz yarımçıq qalar. Müһaribənin davam etdiyi 44 gün ərzində rəşadətli ordumuz Şuşaya doğru dayanmadan, inamla irəliləyirdi. Vaxtilə xəyal kimi görünən bu arzu noyabrın 8-də reallığa çevrildi. Dövlət başçısı deyirdi: “44 gün ərzində Azərbaycan Ordusu һər gün irəliyə gedirdi”. Bütün bunlar Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi.

Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Prezidenti İlһam Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən üçtərəfli Bəyanatın imzalanması ilə һərbi əməliyyatlar dayandırıldı. Һəmin Bəyanata uyğun olaraq, Ermənistan noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonlarını Azərbaycan Ordusuna təһvil verdi. 2022-ci ilin avqustun 26-da isə Laçın şəһəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü.

(Ardı 3-cü səһifədə)



Azərbaycanın Dövlət Bayrağı xalqımızın milli kimliyini, müstəqillik iradəsini, dövlətçilik ənənələrini və azadlıq məfkurəsini özündə yaşadan müqəddəs rəmzlərimizdəndir. Onun һər dalğalanışında xalqımızın şanlı tarixi, mübarizə əzmi, milli birliyi və gələcəyə inamı təcəssüm olunur. Bu bayraq əsrlər boyu azadlıq arzusu ilə yaşayan xalqımızın müstəqil dövlət qurmaq istəyinin və suverenliyinə sahib çıxmaq iradəsinin ifadəsidir. Məһz buna görə də üçrəngli bayrağımız һər bir azərbaycanlı üçün təkcə dövlət atributu deyil, һəm də Vətənə bağlılığın, milli qürurun və fədakarlığın rəmzidir.

Һər il noyabrın 9-da qeyd etdiyimiz Dövlət Bayrağı Günü bu müqəddəs rəmzə ehtiramımızı ifadə etməklə yanaşı, dövlətçilik tariximizin mühüm səһifələrini bir daha xatırladır.

(Ardı 4-cü səһifədə)

Bayram günlərində һərbi qulluqçuların yürüşləri və һərbi orkestrlərin nümunəvi çıxışları təşkil ediləcək





Azərbaycan Respublikasının müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, “8 Noyabr - Zəfər Günü” münasibətilə Bakı şəһərinin müxtəlif yerlərində һərbi orkestrlərin nümunəvi çıxışları, “9 Noyabr - Dövlət Bayrağı Günü” münasibətilə isə Bakı, Sumqayıt, Gəncə, Xankəndi və Naxçıvan şəһərlərinin mərkəzi küçə, prospekt və meydanlarında һərbi orkestrlərin müşayiəti ilə yürüşlər təşkil ediləcək.

“Dəmir yumruq” - milli birliyin, dövlətin qətiyyətinin və tarixi Zəfərin rəmzi

Tariximizdə elə günlər, elə hadisələr var ki, onların dəyəri zaman keçdikcə özünü daһa çox büruzə verir, mənəvi gücü nəsildən-nəslə ötürülür. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müһaribəsində qazanılan möһtəşəm tarixi Zəfər xalqımızın yaddaşına əbədi һəkk olunan belə tarixi hadisələrdəndir. Bu tarixi hadisə döyüş meydanında əldə edilən һərbi uğurlarımızı bir daһa göstərdi. Bu uğurlar milli birliyin, sarsılmaz iradənin, Vətən sevgisinin və dövlətçilik əzminin təntənəsi idi. Azərbaycan xalqı öz liderinin ətrafında sıx birləşərək bütün dünyaya sübut etdi ki, torpaqlarının azadlığı uğrunda daim mübarizə aparanı, һaqqına və tarixi ədalətə söykənən xalqı heç bir qüvvə öz yolundan döndərə bilməz.

“Dəmir yumruq” rəmzi Azərbaycan xalqının birliyini, dövlətimizin qətiyyətini və ordumuzun sarsılmaz gücünü ifadə edən tarixi simvola çevrildi. Bu yumruq xalqın iradəsini, Azərbaycan Ordusunun döyüş əzmini, şəһidlərimizin müqəddəs amalını və dövlətin milli maraqlarını özündə birləşdirdi. Bütün bunlar tarixi Zəfərə gedən yolun başlanğıcı oldu. Bu şərəfli yol uzun illər ərzində formalaşan dövlətçilik siyasətindən, ordunun möһkəmləndirilməsindən, xalqın milli ruһunun qorunmasından və xalqımızın öz haqqını təmin etmək əzmindən keçirdi.

Һər bir dövlətin güclü ordusu olmalı və xalqının təһlükəsizliyini əzmlə qorumalıdır. Bu baxımdan müstəqil Azərbaycanın güclü orduya sahib olması dövlətçilik tariximizin ən mühüm məsələlərindən biri idi. Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəһbərliyi dövründə ordu quruculuğunun sistemli şəkildə һəyata keçirilməsi, һərbi idarəetmənin təkmilləşdirilməsi, milli һərbi kadrların һazırlanması və Silahlı Qüvvələrin dövlətin əsas dayaqlarından biri kimi möһkəmləndirilməsi istiqamətində mühüm islahatlar һəyata keçirildi. Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti Azərbaycanın müdafiə qüdrətinin artırılmasına, milli ordunun formalaşmasına və dövlət müstəqilliyinin etibarlı qorunmasına zəmin yaratdı. Dahi Şəxsiyyətin dövlətçilik məktəbində Vətənə sədaqət, milli maraqların qorunması və güclü dövlətçilik ideyası xüsusi yer tuturdu. Bu ideyalar sonrakı mərһələdə Prezident İlһam Əliyev tərəfindən uğurla һəyata keçirildi. Dövlət başçısının rəһbərliyi ilə Azərbaycan Ordusunun döyüş qabiliyyəti artırıldı, maddi-texniki bazası gücləndirildi, müasir silah və texnikalarla təchiz olundu. Һərbi qulluqçuların peşəkarlığının daһa da yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər һəyata keçirildi.

(Ardı 4-cü səһifədə)

Müasir çağırışlar yeni yanaşmalar tələb edir



Milli Müdafiə Universitetinin (MMU) təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününün 6-cı ildönümünə həsr olunmuş "Müdafiə və milli təhlükəsizliyin aktual problemləri" mövzusunda respublika elmi-praktik konfransı keçirildi. Tədbirdə müdafiə və milli təhlükəsizlik sahəsində aktual məsələlər, müasir hərb elminin inkişaf istiqamətləri və təcrübə mübadiləsi müzakirə olundu.

Konfransın açılış mərasimində əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi ehtiramla yad edildi, abidələrinin önünə gül dəstələri qoyuldu. Bir dəqiqəlik sükutdan sonra Dövlət Himni səsləndirildi və videoçarx nümayiş etdirildi.

MMU-nun rektoru general-mayor Gündüz Əbdülov açılış nitqi ilə çıxış etdi.

Daha sonra professor general-mayor Arif Həsənovun moderatorluğu ilə panel müzakirəsi keçirildi. Paneldə MMU-nun rektoru general-mayor Gündüz Əbdülov, Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi gömrük xidməti general-mayoru Qulu Novruzov, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi general-mayor Elşad Nəsirov, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin şöbə rəisi İltimas Məmmədov və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov çıxış etdilər. Müzakirələrdə dəyişən əməliyyat mühiti, gələcəyin döyüş məkanı, hərbi təhsil və kadr hazırlığı, rəqəmsal ordu, süni intellekt, kibertəhlükəsizlik və yeni müdafiə texnologiyaları əsas mövzular oldu.



Hərbi təhsilin müasir tələblərə uyğunlaşdırılması məsələsinə toxunan general-mayor Gündüz Əbdülov peşəkar hərbi təhsil ekosisteminin yaradılmasının vacibliyini vurğuladı: "Bu prosesdə yalnız təhsilalanların deyil, idarəçilərin və təhsilverənlərin də üzərinə mühüm vəzifələr düşür. Hərbi təhsilin inkişafı bütün iştirakçıların birgə fəaliyyətini tələb edir".





Rektor müasir gəncliyin düşüncə tərzinin və informasiya imkanlarının əvvəlki nəsillərdən fərqləndiyini də diqqətə çatdırdı: "İndiki gənclər 1970-1980-ci illərin məhdud informasiya mühitində formalaşan nəsil deyil. Bir çox məsələlərdə əvvəlki nəsli üstələyirlər. Buna görə də onlarla sağlam ünsiyyət qurmaq, dünyagörüşlərini və potensiallarını düzgün istiqamətləndirmək vacibdir".



General-mayor Gündüz Əbdülov hərbi qulluqçuların xidmət və hazırlıq sistemində nəzərdə tutulan yeniliklər barədə də məlumat verdi: "Yaxın həftələrdə yeni islahat mərhələsinə başlanılması planlaşdırılır. Bu çərçivədə çavuş sisteminin yenilənməsi, gizirlərin peşəkar çavuşlar arasından seçilməsi, eləcə də fərqlənən əsgərlərin taqım komandirinin müavini vəzifəsinə hazırlanması istiqamətində işlər aparılır".

Təhsil proqramlarının texnoloji inkişafın sürətinə uyğun yenilənməsi məsələsini önə çəkən gömrük xidməti general-mayoru Qulu Novruzov bilik sistemində baş verən dəyişikliklərdən danışdı: "Əvvəlki dövrlərdə formalaşmış yanaşmalar öz aktuallığını itirir, yeni reallıqlar isə təhsil və idarəetmə sistemlərinin yenidən nəzərdən keçirilməsini tələb edir. Universitetlərdə qəbul edilən tədris proqramlarının yararlılıq müddəti təxminən 2-4 il olduğu halda, süni intellektin təsiri ilə baş verən dəyişikliklər daha qısa müddətdə meydana çıxır. Buna görə də təhsil müəssisələri texnoloji yeniliklərə hazır olmalıdır".

Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi general-mayor Elşad Nəsirov da təhsil müəssisələrində təhsil proqramlarının çevik yenilənməsinin vacibliyini vurğuladı. Onun sözlərinə görə yeniliklərin tətbiqi üçün 4-5 il gözləmək mümkün deyil. Təhsil proqramları və hazırlıq yanaşmaları ən geci bir il ərzində yenilənməlidir. Akademiya rəisi, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrinin kadr hazırlığında üzərinə düşən məsuliyyətə diqqət çəkdi: "Ali təhsil müəssisələrinin ümumi maraq dairəsi və sərişteyönümlü təhsil yanaşması oxşar olsa da, xüsusi təyinatlı təhsil müəssisələri əvvəlcədən müəyyən edilmiş konkret vəzifələrə uyğun kadr hazırlayırlar. Hazırlanan mütəxəssis gələcək xidmət yerinin tələblərinə cavab verməlidir. Əks halda, həmin ştatın boş qalması riski yaranır".



Süni intellektin təhsil və elmin inkişafındakı rolundan danışan Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov universitetdə bu istiqamətdə görülən işləri diqqətə çatdırdı: "106 illik tarixə malik universitetimizin fəaliyyətini davam etdirməsi dəyişən dövrün tələblərinə uyğunlaşmaq bacarığı ilə bağlıdır. ADNSU-da kompüter elmləri və süni intellekt istiqamətləri üzrə tədrisə xüsusi diqqət yetirilir. Universitetin tərkibində Süni İntellekt İnstitutunun yaradılması da bu sahənin inkişafına verilən önəmin göstəricisidir".

Rektor texniki imkanlarla yanaşı, yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasının da əhəmiyyətini qeyd etdi: "Süni intellektin inkişafı sahəsində dünya ölkələri ilə eyni başlanğıc mövqeyində olmaq Azərbaycan üçün əlavə imkanlar yaradır. Mövcud potensialdan düzgün istifadə etməklə bir sıra ölkələri qabaqlamaq mümkündür".

Süni intellekt müzakirəsi zamanı çıxış edən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin şöbə rəisi İltimas Məmmədov bu vasitənin kiberhücumlarda tətbiqinin yaratdığı risklərə toxunaraq kibertəhlükəsizliyin gücləndirilməsinin vacibliyini vurğuladı: "İnternet istifadəçilərinin sayının və şəbəkə sürətinin artması kibertəhlükəsizlik məsələlərini daha da aktuallaşdırır. Kiberhücumların böyük hissəsində süni intellekt imkanlarından istifadə olunur. Bu texnologiyalar daha az resursla genişmiqyaslı hücumlar həyata keçirməyə şərait yaradır. Buna görə də süni intellektin müdafiə məqsədilə tətbiqi vacibdir".

İltimas Məmmədov Vətən müharibəsi dövründə Azərbaycanın intensiv kiberhücumlara məruz qaldığını və bu hücumların qarşısının alınmasında xidmətin mütəxəssislərinin fəaliyyətini qeyd etdi: "Vətən müharibəsi dövründə Azərbaycan dünyanın müxtəlif yerlərindən intensiv kiberhücumlara məruz qalıb. Xidmətin mütəxəssisləri bir sıra hücumları hələ baş verməmiş aşkarlayaraq zərərsizləşdiriblər".

Şöbə rəisi son dövrdə dövlət qurumlarının internet resurslarına qarşı həyata keçirilən hücumlara da toxunaraq bildirdi ki, baş verən kiberhücumların yaratdığı çətinliklər xidmətin operativ fəaliyyəti nəticəsində qısa müddətdə aradan qaldırılıb.


Ümumilikdə konfrans çərçivəsində milli təhlükəsizlik, hərbi, fundamental və humanitar elmlər, eləcə də hərbi təbabət istiqamətləri üzrə bölmə iclasları keçirildi, elmi məruzələr dinlənildi. Yekun tədbirində konfrans iştirakçılarına sertifikatlar təqdim olundu.

Konfransın nəticələri göstərdi ki, müdafiə və milli təhlükəsizlik sahəsində yeni çağırışlara uyğunlaşmaq üçün hərbi təhsilin təkmilləşdirilməsi, peşəkar kadr hazırlığı, qabaqcıl texnologiyaların tətbiqi və kibertəhlükəsizliyin gücləndirilməsi vacibdir. Elmi bilik və praktiki təcrübənin bir araya gətirildiyi bu platforma həmin istiqamətlərdə əməkdaşlığın genişləndirilməsinə və müdafiə potensialının inkişafına xidmət edir.



Leytenant
Tamilla HÜSEYNLİ
"Azərbaycan Ordusu"

Azərbaycan-Gürcüstan Milli Müdafiə Universitetləri arasında təcrübə mübadiləsi aparılıb




Azərbaycan ilə Gürcüstan Müdafiə nazirlikləri arasında 2026-cı il üçün imzalanmış ikitərəfli hərbi əməkdaşlıq planına uyğun olaraq, Gürcüstan Milli Müdafiə Akademiyası rəisinin birinci müavini polkovnik İmeda Gvritshvilinin rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda rəsmi səfərdədir.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində qonaqlar Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edərək xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunda olan nümayəndə heyəti institutun rektoru polkovnik Elnur Ələsgərli ilə görüşüb.

Görüşdə Azərbaycanın hərbi təhsil sistemində son illərdə həyata keçirilən islahatlar, görülən işlər və əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verilib.

Tərəflər, həmçinin hərbi təhsilin inkişafı istiqamətində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıblar.



Qarşılıqlı hədiyyə mübadiləsindən sonra xatirə fotosu çəkdirilib.

(Əvvəli 1-ci səhifədə)

Tarixə qızıl hərflərlə yazılan 8 Noyabr



44 günlük Zəfər yürüşündə Azərbaycan dövləti, xalqı və ordusu öz qüdrətini dünyaya göstərdi. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti sayəsində, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Azərbaycan Ordusu öz qəhrəmanlığı və peşəkarlığı ilə təkcə Ermənistanın silahlı qüvvələrini məhv etmədi, o, erməni mifini də məhv etdi. Cəmi 44 gün ərzində Ermənistan ordusu, hərbi texnikası və canlı qüvvəsi darmadağın olundu. Müharibə dövründə xalq öz dəmir yumruğunu, birliyini və gücünü nümayiş etdirə bildi.

XXI əsrin müharibəsini aparan Azərbaycanın döyüş təcrübəsi və taktikası bu gün dünyanın inkişaf etmiş ölkələrinin hərbi məktəblərində öyrənilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətini qeyd edirlər. Aparıcı qərb mətbuatı orqanlarında, habelə ABŞ-nin Milli Müharibə Kollecinin (National War College) və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərində Azərbaycan Ordusunun hərbi taktikası öyrənilərkən belə qənaətə gəlinib ki, ordumuzun qarşısında hətta dünyanın aparıcı ölkəsi olsaydı belə, onun da heç bir şansı olmayacaqdı.

Vətən müharibəsinin altıncı ildönümü ərəfəsində onu da qeyd etmək yerinə düşər ki, bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev deyir: “Biz sülh istəyirik, biz müharibə istəmirik. Sülh, amma ədalətli sülh. İrəli sürdüyümüz şərtlər ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və sülh müqaviləsi bu şərtlər əsasında imzalanmalıdır”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-nin Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli digər Sərəncamı ilə Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər muzeyi yaradılıb. Ötən il Vətən müharibəsində qazanılan qələbəmizin beşilliyi münasibətilə noyabrın 8-də Zəfər muzeyinin açılışı olub. Yaşasın Müzəffər Ali Baş Komandan! Eşq olsun rəşadətli Azərbaycan Ordusuna!

Eyni zamanda, 8 Noyabr - Şuşa Şəhəri Günüdür. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsinin ən şanlı səhifələrindən biri Şuşa şəhərinin Ermənistanın işğalından azad edilməsidir.

İgid əsgər və zabitlərimiz uzun məsafə qət edərək, sıldırım qayalardan və dərin dərələrdən keçərək, əsl qəhrəmanlıq, mərdlik, rəşadət nümunəsi göstərərək Şuşa şəhərini işğaldan azad etdi. Bu möhtəşəm qələbə Prezident İlham Əliyevin Sərəncamı ilə əbədiləşdirildi: Şuşa şəhərinin işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq noyabrın 8-i Zəfər Günü elan edildi. 2021-ci il yanvarın 14-də isə dövlətimizin başçısı Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı.

2020-ci il noyabrın 8-də rəşadətli ordumuz Şuşa şəhərini işğaldan azad edərək şanlı tarix yazdı. Qəhrəman Vətən oğulları düşməni Qarabağın döyünən qəlbi olan Şuşadan qovub çıxardı. Birmənalı şəkildə demək olar ki, Qarabağ Zəfərinin zirvəsində Şuşa əməliyyatı dayanır. Bu möhtəşəm Zəfərin memarı Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirərək Ulu Öndərin başladığı işi məntiqi sonluğuna çatdırdı, bununla da öz adını Azərbaycan tarixinə qüdrətli sərkərdə, Müzəffər Ali Baş Komandan kimi əbədi yazdırdı. Dövlətimizin başçısı xalqa müraciətində bildirdi: “Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!”

2023-cü il sentyabrın 19-20-də Zəfər yürüşünün davamı olan antiterror əməliyyatı uğurla nəticələndi. Cəmi 23 saat 48 dəqiqə davam edən bu əməliyyat Ali Baş Komandanın qətiyyətini, dəmir yumruğun yerində olduğunu, ordumuzun gücünü bir daha nümayiş etdirdi. Respublikamızın ərazi bütövlüyü, suverenliyi tam təmin olundu. Düşmən üç il əvvəl olduğu kimi, yenə də ağ bayraq qaldıraraq təslim olmağa məcbur edildi. Bununla da Qarabağda terrorçuların və separatçı rejimin mövcudluğuna birdəfəlik son qoyuldu.

Altı il əvvəl azadlığına qovuşmuş Şuşa böyük quruculuq, təmir-bərpa işlərinin, möhtəşəm tədbirlərin məkanına çevrilib. İgid hərbçilərimizin Şuşaya doğru dağların, meşələrin qoynu ilə irəliləyərək açdığı cığır boyu avtomobil yolu da salınıb və Prezident İlham Əliyev Şuşaya 101 kilometr uzunluğu olan bu yolu “Zəfər yolu” adlandırıb.

Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olub. 1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə “Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında” qərar qəbul edilmişdi. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edirdi.

Dövlətimizin başçısının 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilib. 2021-ci il 31 may tarixində qəbul edilmiş “Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Azərbaycan Respublikasının Qanunu isə Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşa şəhərinin qorunması, bərpası, öyrənilməsi, inkişafı və təbliğinin hüquqi və təşkilati əsaslarını müəyyən edir. Şuşa şəhərinin inzibati sərhədləri daxilində Şuşa Şəhəri Dövlət Qoruğu da yaradılıb.

Lakin işğal nəticəsində Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələrini düşmən talan edib, şəhərin memarlığına və milli-mədəni irsimizə misli görünməmiş ziyan vurub. Şuşanın işğaldan azad edilməsindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb. Şuşa bütün Qafqazın incisi, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm xidmətləri olan görkəmli xadimlərin Vətəni, tarixi-mədəni abidələrlə zəngin şəhər, hərbi-strateji əhəmiyyətli qaladır. Burada bütün bərpa-quruculuq işləri planlı şəkildə aparılır, Şuşanın tarixi siması saxlanılır. Artıq bir çox abidələr Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı güllələnmiş büstləri bərpa olunub. Şuşada bir neçə hotel yenidənqurmadan sonra istifadəyə verilib. Modul tipli xəstəxana, Dövlət Xidmətləri Mərkəzi, Zəfər yolunun üzərindəki Şuşa Hotel və Konqres Mərkəzi Kompleksi fəaliyyətə başlayıb. İndiyədək Şuşada 450 mənzildən ibarət 23 bina sakinlərin istifadəsinə verilib. Şuşa şəhərində sürətlə məskunlaşma prosesi həyata keçirilir. Şuşa şəhərinin işğaldan azad olunması xəbərini xalqımıza böyük sevinc hissi ilə çatdıran Müzəffər Ali Baş Komandan İlham Əliyev deyib:

“Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir!
Qarabağ Azərbaycandır!”

Prezident İlham Əliyevin 2022-ci il 5 yanvar tarixli Sərəncamı ilə 2022-ci il Azərbaycan Respublikasında “Şuşa İli” elan edilib.

Eyni zamanda, Şuşa şəhəri həmin il martın 31-də Türkiyənin Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı”, 2023-cü il sentyabrın 25-də Qətərin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı”, 2023-cü il oktyabrın 5-də İranın Ərdəbil şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin turizm nazirlərinin 5-ci iclasında 2026-cı il üçün “İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı” elan edilib.

Dövlətimizin başçısının 2023-cü il 31 iyul tarixli Sərəncamına əsasən, 8 Noyabr - Şuşa Şəhəri Günü kimi təntənəli şəkildə qeyd olunur. İşğaldan azad edilmiş şəhər günlərinin təsis olunması Vətən müharibəsində qazanılmış tarixi qələbəni əbədiləşdirmək məqsədi daşıyır.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə tarixi Zəfəri xalqımıza yaşadan rəşadətli Azərbaycan Ordusunun müdafiə qüdrəti gündən-günə artırılır. Azərbaycan Ordusu respublikamızın ərazi bütövlüyünün, təhlükəsizliyinin təminatçısıdır. Şanlı Zəfərin mübarək, Azərbaycan Ordusu!

Lalə HÜSEYNOVA
“Azərbaycan Ordusu”

Üçrəngli bayrağımız milli qürurumuzun və Zəfərimizin rəmzidir



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncamla təsis edilən bu əlamətdar gün xalqımızın milli istiqlal tarixində xüsusi yer tutur. Üçrəngli bayrağımızın tarixi 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə sıx bağlıdır. Həmin il noyabrın 9-da Bakıda keçirilən hökumət iclasında mavi, qırmızı və yaşıl rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət milli bayraq qəbul edildi. Bu hadisə Azərbaycan xalqının milli dövlətçilik ənənələrinin formalaşmasında mühüm mərhələ oldu.

Bayrağımızın rəngləri xalqımızın milli ideallarını, mənəvi dəyərlərini və dünyagörüşünü ifadə edir. Mavi rəng türkçülüyü, qırmızı rəng müasirliyi və inkişafı, yaşıl rəng isə islam sivilizasiyasına mənsubluğumuzu təcəssüm etdirir. Bu rənglərin bir bayraqda birləşməsi xalqımızın milli mənəvi köklərinə bağlılığını, müasir dünyaya inteqrasiya istəyini və ümumbəşəri dəyərlərə sədaqətini nümayiş etdirir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra üçrəngli bayrağımız endirilsə də, onun xalqımızın yaddaşında yaşatdığı istiqlal ideyası heç vaxt sönmədi. Onilliklər sonra milli azadlıq hərəkatının yüksəlişi ilə bayrağımız yenidən ucalmağa başladı. Bu tarixi prosesdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müstəsna xidmətləri oldu. 1990-cı il noyabrın 17-də Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanın dövlət bayrağı kimi qəbul edildi. Eyni zamanda, Azərbaycan SSR Ali Soveti qarşısında onun respublikanın rəsmi dövlət rəmzi kimi tanınması barədə vəsatət qaldırıldı. 1991-ci il fevralın 5-də isə üçrəngli bayrağımız yenidən Azərbaycan Respublikasının Dövlət Bayrağı statusunu aldı. Həmin il oktyabrın 18-də dövlət müstəqilliyimizin bərpası ilə bu bayraq müstəqil Azərbaycanın suverenliyinin və dövlətçiliyinin əsas rəmzlərindən birinə çevrildi.

Bu gün müstəqil Azərbaycanın Dövlət Bayrağı ölkəmizin beynəlxalq nüfuzunun, suverenliyinin və milli birliyinin təcəssümü kimi dünyanın müxtəlif ölkələrində, beynəlxalq təşkilatların iqamətgahları qarşısında qürurla dalğalanır. Dövlət başçısı İlham Əliyevin 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması haqqında Sərəncamı da milli rəmzimizə göstərilən ehtiramın bariz nümunəsidir. 2010-cu il sentyabrın 1-də təntənəli açılışı keçirilən meydan dövlətçilik qürurumuzun rəmzinə çevrildi. 2024-cü il noyabrın 8-də meydanın yenidən açılışı zamanı Prezident İlham Əliyevin Azərbaycan Bayrağını ucaltması isə ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün bərpasından sonra xüsusi tarixi məna daşıdı. Burada fəaliyyət göstərən Dövlət Bayrağı Muzeyində yaradılan "Zəfər qalereyası" da üçrəngli bayrağımızın Vətən müharibəsində qazandığımız tarixi Qələbə ilə vəhdətini nümayiş etdirir.

Lakin bayrağımızın ən böyük mənəvi təntənəsi onun uzun illər işğal altında qalan torpaqlarımızda yenidən dalğalanması oldu. 30 ilə yaxın müddətdə xalqımızın qəlbində yaşatdığı azadlıq arzusu 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində gerçəyə çevrildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi, siyasi iradəsi və sərkərdəlik məharəti ilə Azərbaycan Ordusu tarixi torpaqlarımızı işğaldan azad etdi. Bu Zəfərin əsas qəhrəmanı isə Vətən torpağının hər qarışı uğrunda döyüşən, misilsiz şücaət və fədakarlıq göstərən Azərbaycan əsgəri oldu. Ali Baş Komandanın rəhbərliyi və Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində üçrəngli bayrağımız illərlə həsrətində olduğumuz şəhər və kəndlərimizdə yenidən ucaldı. Şuşada, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə və digər azad edilmiş ərazilərimizdə dalğalanan bayrağımız xalqımızın iradəsinin, birliyinin və sarsılmaz dövlətçilik əzminin təntənəsinə çevrildi.

Dövlət başçısının işğaldan azad edilmiş ərazilərə səfərləri zamanı Azərbaycan Bayrağını ucaltması hər birimiz üçün unudulmaz tarixi anlar oldu. Bu anlarda bayrağımızın hər dalğası şəhidlərimizin müqəddəs xatirəsinə ehtiramı, hərbçilərimizin fədakarlığını və qəhrəmanlığını ifadə edirdi.

Azərbaycan Respublikasının Konstitusiyasında Dövlət Bayrağının dövlət rəmzi kimi təsbit edilməsi, onun təsvirinin və istifadəsi qaydalarının qanunlarla müəyyənləşdirilməsi bu müqəddəs atributun hüquqi statusunu və toxunulmazlığını təmin edir. Konstitusiyanın 75-ci maddəsi hər bir vətəndaşın dövlət rəmzlərinə hörmətlə yanaşmasını tələb edir. Ancaq bayrağa ehtiram yalnız qanunla müəyyən edilmiş vəzifə deyil, həm də hər bir azərbaycanlının mənəvi borcudur. Çünki bu bayraq uğrunda canından keçən şəhidlərimizin qanı, Vətən uğrunda mübarizə aparan igidlərimizin qəhrəmanlığı, xalqımızın müstəqillik arzusu yaşayır.

Türk şairi Mithat Cemal Kuntay tərəfindən yazılmış "Vətən" şeirinin misraları ilə desək:

Bayraqları bayraq edən üstündəki qandır,
Torpaq, uğrunda ölən varsa, Vətəndir!

Bu gün üçrəngli bayrağımızın azad torpaqlarımızda əzəmətlə dalğalanması böyük tarixi Zəfərimizin ən aydın ifadəsidir. Bu, bir daha göstərir ki, Dövlət Bayrağı yalnız dalğalandırılan parça deyil, onu ucaldan xalqın gücünün, birliyinin və müstəqilliyinə sahib çıxmaq əzminin təcəssümüdür. Üçrəngli bayrağımız bundan sonra da müstəqil Azərbaycanın səmasında əbədi dalğalanacaq, gələcək nəsillərə azadlıq, qürur və Zəfər tariximizi xatırladacaq.

Baş leytenant
Elçin İMANOV
"Azərbaycan Ordusu"

"Dəmir yumruq" - milli birliyin, dövlətin qətiyyətinin və tarixi Zəfərin rəmzi

(Əvvəli 1-ci səhifədə)

Bu da müdafiə sənayesinin inkişafına, beynəlxalq əməkdaşlığın genişləndirilməsinə, təlim və tədris prosesinin təkmilləşdirilməsinə zəmin yaratdı. Bu prosesdə əsas məqsəd hərbi imkanların artırılması, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması, keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdışını təmin etmək idi. Azərbaycan dövləti bu problemləri həll etmək məqsədilə bütün siyasi və diplomatik imkanlardan istifadə etsə də, Ermənistanın işğalçılıq siyasəti münaqişənin sülh yolu ilə həll olunmasına mane olurdu.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumlarına cavab olaraq Azərbaycan Ordusunun əks-hücum əməliyyatı Vətən müharibəsinin başlanğıcı oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın igid oğulları döyüş meydanında böyük əzmkarlıq, yüksək peşəkarlıq və misilsiz qəhrəmanlıq nümayiş etdirdilər. Hər bir uğurlu əməliyyat ordunun hazırlığının, düzgün hərbi planlaşdırmanın və şəxsi heyətin Vətənə sədaqətinin göstəricisini əks etdirdi.

Müharibənin gedişində azad edilən yaşayış məntəqələri xalqımızın qəlbində illərlə yaşatdığı ümidləri reallığa çevirdi. Cəbrayılın, Zəngilanın, Qubadlının və digər yaşayış məntəqələrinin işğaldan azad olunması, strateji əhəmiyyətli yüksəkliklərə nəzarətin təmin edilməsi Azərbaycan Ordusunun əməliyyat üstünlüyünü daha da möhkəmləndirdi. Hər bir uğurlu döyüş əməliyyatı yeni qələbələrə yol açdı, hər bir azad edilən kənd, qəsəbə və şəhər xalqımızın qələbə əzmini daha da artırdı.

Qədim Şuşa şəhərinin azad edilməsi isə Vətən müharibəsinin ən parlaq səhifələrindən biri kimi tarixə düşdü. Çətin şəraitdə keçirilən bu əməliyyat Azərbaycan Ordusunun cəsarətini, döyüş hazırlığını və yüksək mənəvi keyfiyyətlərini bütün dünyaya nümayiş etdirdi. Şuşa qələbəsi hərbi baxımdan mühüm nəticə olmaqla yanaşı, milli-mənəvi dəyərlərimizin, mədəniyyətimizin və tarixi yaddaşımızın təntənəsi idi.

Noyabrın 8-də Şuşanın azad edilməsi müjdəsini Ali Baş Komandan İlham Əliyev xalqa Şəhidlər xiyabanından çatdırdı.

Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat isə hərbi əməliyyatların dayandırılmasına və münaqişənin yeni mərhələyə keçməsinə şərait yaratdı. Beləliklə, Azərbaycan öz hərbi-siyasi məqsədlərinə nail olaraq ərazi bütövlüyünün bərpası istiqamətində tarixi dönüşə imza atdı. 44 günlük Vətən müharibəsində qazanılan Qələbə sübut etdi ki, güclü dövlət, qüdrətli ordu və xalq birliyi qarşıya qoyulan ən çətin vəzifələrin həllində həlledici rol oynayır.

Tarixi Zəfərin qazanılmasında dövlətimizin qətiyyətli siyasəti, Vətənin igid oğullarının şücaəti və xalqımızın mənəvi dəstəyi dayanır. Torpaq, Vətən sevgisi könüllü döyüşçülərin və arxa cəbhədə çalışan insanların mənəvi dəstəyi ümumi qələbə əzmini gücləndirirdi. Xalqla ordu arasında yaranmış sarsılmaz birlik Vətən müharibəsinin ən mühüm dayaqlarından biri oldu.

Torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edən şəhidlərimizin adları Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldı. Döyüşdə yaralananlar isə göstərdikləri şücaətlə qəhrəmanlığın canlı nümunəsinə çevrildilər. Tarixi Zəfərimizin hər bir səhifəsi onların adı ilə bağlıdır.

Vətən müharibəsində Azərbaycan Ordusunun əldə etdiyi uğurlar müasir müharibənin xarakterini, texnologiyanın və düzgün əməliyyat planlaşdırmasının əhəmiyyətini də nümayiş etdirdi. Pilotsuz uçuş aparatlarından, dəqiq zərbə vasitələrindən, kəşfiyyat imkanlarından və müxtəlif qoşun növlərinin uzlaşdırılmış fəaliyyətindən səmərəli istifadə döyüş əməliyyatlarının gedişinə ciddi təsir göstərdi. Lakin müasir texnologiya nə qədər qələbə qazandırsa da, onun arxasında peşəkar hərbi qulluqçular, dəqiq qərarlar, düzgün idarəetmə və yüksək döyüş ruhu olan vətənpərvər insanlar dayanmalıdır. Azərbaycan Ordusu bütün bu amillərin vəhdətini nümayiş etdirərək müasir hərb tarixində özünəməxsus təcrübə yaratdı.



Tarixi Zəfərdən sonra qarşıda yeni vəzifələr yarandı. Azad edilmiş ərazilərdə həyatın bərpası, infrastrukturun yenidən qurulması, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışının təmin edilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdış I Dövlət Proqramı prosesi uğurla davam etdirilir. Bu proqram Qarabağ və Şərqi Zəngəzurun dirçəlişinə, yaşayış məntəqələrinin bərpasına, bölgədə yeni və dayanıqlı həyatın qurulmasına xidmət edir. Yeni yolların, yaşayış komplekslərinin, məktəblərin, uşaq bağçalarının, xəstəxanaların, mədəniyyət ocaqlarının və digər sosial obyektlərin inşası Zəfərin quruculuq mərhələsini təşkil edir.

Bununla yanaşı, müasir dövrün tələbləri Azərbaycan Ordusunun qarşısında yeni vəzifələr qoyur. Regional təhlükəsizlik mühiti, hərbi texnologiyaların sürətli inkişafı və müharibə təcrübəsinin dəyişməsi Azərbaycan Ordusunun daim təkmilləşdirilməsini zəruri edir. Belə ki, peşəkar kadr hazırlığı, müasir döyüş üsullarının mənimsənilməsi, hərbi intizamın möhkəmləndirilməsi və şəxsi heyətin mənəvi-psixoloji hazırlığı ordunun döyüş qabiliyyətinin əsas şərtləridir.

Xalqımızın "Dəmir yumruq" ətrafında birləşməsi dövlətimizin inkişafı, milli maraqlarımızın qorunması və gələcək hədəflərimizə çatmaq üçün mühüm mənəvi sərvətdir. Vətənə sədaqət, dövlətə inam, orduya ehtiram və milli həmrəylik cəmiyyətimizin möhkəm dayaqları olaraq qalmalıdır. Çünki tarixi Zəfərimizin dəyəri yalnız qazanılmış Qələbə ilə ölçülmür. Bu dəyər həm də həmin Qələbənin yaratdığı məsuliyyəti necə daşımağımızda, şəhidlərimizin bizə əmanət etdiyi torpaqlarımıza necə sahib çıxmağımızda və gələcəyimizi necə qurmağımızda özünü göstərir.

Bu gün Azərbaycan Ordusu müstəqil dövlətimizin təhlükəsizliyinin, suverenliyinin və milli maraqlarının qorunmasında mühüm rol oynayır. Vətən müharibəsində qazanılan tarixi Zəfər bir daha sübut etdi ki, milli birliklə möhkəmlənən dövlət və yüksək döyüş ruhuna malik ordu qarşısına qoyduğu məqsədlərə çata bilər.

"Dəmir yumruq" xalqımızın birliyinin, dövlətimizin qətiyyətinin və Azərbaycan Ordusunun gücünün rəmzi kimi yaddaşlarda yaşayır. Bu rəmzin arxasında bütöv bir xalqın iradəsi, şəhidlərimizin müqəddəs xatirəsi dayanır. Tarixi Zəfər hərb tariximizin şərəfli salnaməsinə çevrilib. Bu salnamə gələcək nəsillərə bir həqiqəti çatdırır: Vətən sevgisi ilə birləşən xalq, güclü dövlət və qüdrətli ordu Azərbaycanın müstəqilliyinin, təhlükəsizliyinin və gələcək uğurlarının ən etibarlı təminatıdır.

Kifayət ƏLİYEVA
"Azərbaycan Ordusu"

“Zəfərin qürurunu, bayrağımızın əzəmətini yaşadırıq”

Noyabr Azərbaycan xalqının tarixi yaddaşında xüsusi yer tutan, milli dövlətçilik ənənələrimizin, müstəqillik iradəmizin və qəhrəmanlıq salnaməmizin mühüm səhifələrini əks etdirən aylardandır. Bu ayda qeyd olunan 8 Noyabr - Zəfər Günü və 9 Noyabr - Dövlət Bayrağı Günü xalqımızın keçdiyi şərəfli yolun, azadlıq uğrunda mübarizəsinin və dövlətçilik əzminin rəmzi kimi xüsusi məna daşıyır. Vətən müharibəsində əldə edilən tarixi Qələbə xalqımızın öz gücünə və gələcəyinə inamını daha da möhkəmləndirdi. Azərbaycan Ordusunun qəhrəmanlığı, hərbi qulluqçularımızın peşəkarlığı və yüksək döyüş ruhu nəticəsində torpaqlarımız işğaldan azad edildi, ərazi bütövlüyümüz bərpa olundu. Bu gün həmin torpaqlarda xidmət aparan Azərbaycan Ordusunun hərbi qulluqçuları isə əldə olunan nailiyyətlərin qorunması, təhlükəsizliyin və sabitliyin təmin edilməsi üçün üzərlərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirirlər. Azad Qarabağda və Şərqi Zəngəzurda dalğalanan üçrəngli bayrağımız xalqımızın iradəsinin, dövlətimizin suverenliyinin və tarixi Qələbəmizin ifadəsidir. Vətənin keşiyində dayanan əsgərlərimiz üçün üçrəngli bayrağımızın kölgəsində xidmət etmək həm böyük qürur, həm də müqəddəs məsuliyyətdir. Əlamətdar günləri işğaldan azad edilən ərazilərdə qarşılayan hərbi qulluqçularımız bayram sevinclərini xalqımızla bölüşür, bütün həmvətənlərimizə səmimi təbriklərini və xoş arzularını çatdırırlar.

“Azərbaycan Ordusu”





Baş leytenant Valid Mərdanlı: “Mən fəxr edirəm ki, qalib Azərbaycan Ordusunun hərbi qulluqçusuyam. Bu gün daşıdığım hərbi forma mənim üçün sadəcə geyim deyil, həm də böyük məsuliyyətin, şərəfin və Vətənə sədaqətin rəmzidir. Zəfər Gününü qeyd edərkən xalqımızın keçdiyi çətin və şərəfli yolu bir daha xatırlayıram. 44 günlük Vətən müharibəsində Azərbaycan əsgəri əsl qəhrəmanlıq göstərdi. Həmin günlərdə döyüş meydanında nümayiş etdirilən cəsarət, iradə və qətiyyət bu gün də bizə güc verir. Zəfərin arxasında illərlə aparılan hazırlıq, yüksək döyüş ruhu və Vətən sevgisi dayanır. Hər dəfə üçrəngli bayrağımızın dalğalandığını görəndə qəlbimdə böyük qürur hissi yaranır. Çünki bu bayraq artıq xalqımızın qəhrəmanlığının və tarixi Zəfərinin rəmzinə çevrilib. Bizə əmanət edilən torpaqları qorumaq, dövlətimizin təhlükəsizliyini təmin etmək, şəhidlərimizin əziz xatirəsini daim uca tutmaq, döyüş əməliyyatlarında yaralanan silahdaşlarımızın fədakarlığını unutmamaq hər birimizin borcudur. Bu gün xidmət etdiyim hərbi hissədə bilik və bacarıqlarımı durmadan təkmilləşdirirəm. Çünki Ana Vətənin müdafiəsi hər an hazır olmağı tələb edir. Arzum budur ki, ölkəmizin səmasında hər zaman sülh olsun, bayrağımız daim qürurla dalğalansın. Zəfər Günümüz mübarək!”

Leytenant Fərid Süleymanov: “Zəfər Günü mənim üçün tarixdə qazanılmış bir uğurdan daha böyük məna daşıyır. Bu gün xalqımızın birliyinin, ordumuzun qüdrətinin və Vətənə bağlılığımızın təcəssümüdür. Azərbaycan hərbçisi kimi belə bir tarixi qələbəni qazananların davamçısı olduğum üçün özümü xoşbəxt və qürurlu hiss edirəm. Uşaqlıqdan eşitdiyim Qarabağ həsrətinin sona çatması xalqımızın yaddaşında əbədi yaşayacaq. 2020-ci ilin payızında Azərbaycan əsgərinin döyüş meydanında yazdığı tarix hər birimizə qürur mənbəyidir. O günlərdə nümayiş etdirilən qəhrəmanlıq sübut etdi ki, Vətən sevgisi insanı ən çətin sınaqlardan belə üzüağ çıxarır. Bu qələbə bizə yalnız torpaqlarımızı deyil, həm də milli qürurumuzu qaytardı. Bu gün mənim əsas məqsədim üzərimə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmək, hərbi biliklərimi artırmaq və peşəkar hərbi qulluqçu kimi formalaşmaqdır. Bilirəm ki, hər bir hərbi qulluqçunun hazırlığı bütövlükdə ordumuzun gücünə töhfə verir. Biz istənilən tapşırığı dəqiqliklə icra etməyə hazırıq. Mənim üçün ən böyük mükafat xalqımızın əmin-amanlıq içində yaşaması və gələcək nəsillərin müharibə görməməsidir. Şəhidlərimizin Vətən uğrunda canlarından keçərək bizə miras qoyduqları müqəddəs dəyərləri qorumaq hər bir azərbaycanlının borcudur. Onların qəhrəmanlığı qarşısında baş əyir, döyüşlərdə yaralananlara şəfa arzulayıram. Azərbaycan Ordusu bundan sonra da dövlətimizin təhlükəsizliyinin etibarlı təminatçısı olacaq. Qalib xalqın hərbi qulluqçusu olmaq mənim üçün böyük şərəfdir!”



Baş gizir Novruz Dadaşov: “Salam, əziz həmvətənlər! Hər bir azərbaycanlının qəlbində xüsusi yerləri olan Zəfər Günü və Dövlət Bayrağı Gününü Azərbaycan hərbçisi kimi qarşılayıram.

Bu gün Qarabağda həyat yenidən canlanır, doğma yurdlarına qayıdan insanların evlərində işıqlar yanır, toy-bayram səsləri eşidilir. Bütün bunlar Zəfərin bizə bəxş etdiyi ən böyük xoşbəxtliklərdəndir. Mənim arzum budur ki, gələcək nəsillər 8 Noyabrı tarix kitablarından oxusun, müharibənin ağrısını yaşamadan qalib ölkənin vətəndaşı kimi böyüsünlər. Bu qüruru bizə yaşadan şəhidlərimizin ruhu qarşısında baş əyir, müharibədə yaralanan həmvətənlərimə ehtiramımı bildirirəm. Zəfər sevincimiz daim olsun! Bayramlarınız mübarək!”

Gizir Məhəmmədəmin Qasımov: “Salam, Azərbaycan! Hər gün xidmət etdiyim bölmədə qürurla dalğalanan üçrəngli bayrağımıza baxanda onun mənim üçün ifadə etdiyi mənanı bir daha anlayıram. Bu bayraq altında and içmişəm, bu bayrağın şərəfini qorumaq üçün xidmət edirəm. Onun dalğalandığı hər yerdə özümü daha güclü, daha məsuliyyətli hiss edirəm. Mən istəyirəm ki, bayrağımızı görən hər bir azərbaycanlı özünü güvəndə və qürurlu hiss etsin. Uşaqlarımız onun altında böyüsün, gənclərimiz onunla fəxr etsin, idmançılarımız beynəlxalq arenalarda onu yüksəltsin, hərbi qulluqçularımız isə onu daim ucalarda saxlasınlar. Bu gün bayrağımız Vətənimizin digər yerlərində olduğu kimi, azad edilmiş torpaqlarımızda da dalğalanır. Onun hər bir dalğasında bir xalqın arzusu, əzmi və gələcəyə inamı var. Mən Azərbaycan Ordusunun hərbi qulluqçusu olaraq söz verirəm ki, bu bayrağın ucalığına layiq xidmət edəcəyəm. Qoy üçrəngli bayrağımız həmişə zirvələrdə olsun! Bayramlarınız mübarək!”

Əsgər Vüsal Dəmirçiyev: “8 Noyabr - Zəfər Günü xalqımızın yaddaşına qızıl hərflərlə yazılan, hər bir azərbaycanlının qəlbində qürur və sevinc hissi yaşadan əlamətdar gündür. Azərbaycan xalqı bu günlərdə öz gücünü, birliyini və Vətən sevgisini bütün dünyaya nümayiş etdirdiyi tarixi Qələbəni qeyd edir. Bu münasibətlə xalqımızı ürəkdən təbrik edir, hər bir ailəyə sevinc və xoş günlər arzulayıram.



İşğaldan azad edilmiş torpaqlarda xidmət etmək mənim üçün böyük şərəf və qürurdur. Vaxtilə düşmən tapdağında olan bu ərazilərdə indi Azərbaycan bayrağı



dalğalanır. Burada xidmət etdikcə Vətən torpağının hər qarışının nə qədər qiymətli olduğunu daha dərindən anlayıram. Bu torpaqlar uğrunda döyüşən, canından keçən qəhrəmanlarımızın əziz xatirəsini ehtiramla yad edirəm. Bizim bu gün burada xidmət etməyimiz onların göstərdiyi qəhrəmanlığın və fədakarlığın davamıdır.

Şuşanın azad olunması isə Zəfər tariximizin ən şanlı səhifələrindən biridir. Şuşa təkcə bir şəhər deyil, Azərbaycan xalqının mənəvi sərvəti, mədəniyyətimizin beşiyi və milli qürurumuzun rəmzidir. Arzu edirəm ki, azad edilmiş yurd yerlərimiz də inkişaf etsin, küçələrdə uşaqların səsi eşidilsin, hər evdən sevinc və xoşbəxtlik əskik olmasın.

Əlamətdar günlər münasibətilə xalqımızı bir daha təbrik edir, şəhidlərimizə Allahdan rəhmət, hərbçilərimiz cansağlığı arzulayıram. Qoy üçrəngli bayrağımız daim yüksəklərdə dalğalansın! Zəfər Gününüz və Dövlət Bayrağı Gününüz mübarək!”

Əsgər Aqil Orucov: “Zəfər Günü hər bir azərbaycanlının qəlbində xüsusi yer tutur. Bu tarix xalqımızın illərlə gözlədiyi arzunun gerçəkləşdiyi, torpaqlarımızın işğaldan azad olunduğu və dövlətimizin gücünün nümayiş etdirildiyi gündür. Mən də bu sevinci yaşayan Azərbaycan vətəndaşı və Vətənimizin müdafiəçisi kimi xalqımızı bu əlamətdar bayram münasibətilə təbrik edirəm. Bu gün işğaldan azad edilmiş ərazilərdə xidmət keçmək mənim üçün həm məsuliyyət, həm də böyük fəxrdir. Xidmət etdiyimiz bu torpaqlara baxdıqca düşünürəm ki, xalqımız nə qədər çətin sınaqlardan keçib. Bu torpaqların azadlığı üçün qəhrəman oğullarımız böyük fədakarlıq göstəriblər. Onların arasında öz həyatını Vətənə qurban verən igidlərimiz də var. Biz şəhidlərimizin əziz xatirəsini heç vaxt unutmamalı, onların bizə əmanət qoyduğu Vətəni göz bəbəyimiz kimi qorumalıyıq.

Mən istəyirəm ki, gələcək nəsillər müharibə görməsin, onlar Vətənimizin gözəl günlərində yaşasınlar. Biz əsgərlər isə üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirərək ölkəmizin ərazi bütövlüyü və suverenliyini qorumağa hər zaman hazırıq.

Bu gözəl bayramlar münasibətilə hər bir azərbaycanlını təbrik edir, şəhidlərimizin ruhu qarşısında baş əyirəm. Arzu edirəm ki, xalqımız daim bir olsun, Azərbaycanımızın başı həmişə uca, bayrağı isə hər zaman zirvələrdə dalğalansın. Zəfərimiz əbədi olsun”.

Əsgər Pərviz Atakişiyev: “Bir ilə yaxındır ki, Vətənə xidmət edirəm. Bununla qürur duyuram.



Vətəni qorumaq, ona şərəflə xidmət etmək hər bir oğulun mənəvi borcudur. “Vətəni qorusan sənindir, qorumasan yadındır”, deyimi necədə yerində deyilib. Mən doğulanda və böyüyüb özümü dərk etməyə başlayanda ən çox eşitdiyim “ölkəmiz müharibə şəraitindədir”, “torpaqlarımız ermənilər tərəfindən işğal edilib” kimi sözlər olub.

(Ardı 6-cı səhifədə)

Bakıda hərbi-mülki əməkdaşlıq (CIMIC) təlimi keçirilib







Azərbaycan və İtaliya Müdafiə nazirlikləri arasında imzalanan ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, iki ölkənin hərbi-mülki əməkdaşlıq (CIMIC) üzrə hərbi ekspertlərinin, eləcə də Müdafiə Nazirliyinin baş idarə, idarə və qoşun növlərinin hərbi qulluqçularının iştirakı ilə təlim keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Şəxsi Heyət Baş İdarəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsində təşkil olunan təlim çərçivəsində iştirakçılara hərbi əməliyyatların planlaşdırılması və icrası prosesində hərbi-mülki əməkdaşlığın (CIMIC) rolu və əhəmiyyəti, mülki əhali və müvafiq qurumlarla qarşılıqlı fəaliyyətin təşkili, eləcə də mülki infrastrukturla bağlı məsələlər barədə ətraflı məlumat verilib.





Təlim zamanı italiyalı hərbi ekspertlər tərəfindən hərbi-mülki əməkdaşlığın əsas prinsipləri, tətbiq mexanizmləri və beynəlxalq təcrübəyə dair geniş təqdimat keçirilib, təlim qrupları tərəfindən praktiki tapşırıqlar icra edilib. Həmçinin Azərbaycan və İtaliya tərəfləri arasında bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi və qarşılıqlı mübadiləsi, əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub. İştirakçıların sualları ekspertlər tərəfindən cavablandırılıb.

“Zəfərin qürurunu, bayrağımızın əzəmətini yaşadırıq”



(Əvvəli 5-ci səhifədə)

Ona görə də işğalçılara qarşı qəzəbim artırdı. Böyüyüb əsgər olacağımı və düşmənə qarşı döyüşüb torpaqlarımızın azad edilməsində iştirak etmək istəyirdim. Amma tale elə gətirdi ki, mən həmin döyüşlərdə iştirak edə bilmədim. Qalib ordumuz işğal altındakı ərazilərimizi azad etdi. Cəmi 44 gün davam edən müharibə xalqımızın və ordumuzun şanlı qələbəsi ilə yekunlaşdı.

Düşməndən azad edilmiş ərazilərimizdə xidmət etmək qürurvericidir. 30 ilə yaxın ermənilər əsrarəngiz təbiəti olan doğma torpaqlarımızı işğal altında saxlayıblar. Bu gün azad edilmiş şəhər və rayonlarımız, yaşayış məntəqələrimiz yenidən bərpa olunur. Bir çox yerlərə yerli əhali köçürülür. Onların dinc, əmin-amanlıq şəraitində yaşamaqları üçün daim ayıq-sayıq xidmət edirik.

Bu günlərdə torpaqlarımızın düşmən işğalından azad edilməsinin 6-cı ildönümü qeyd edirik. Bu münasibətilə bütün silahdaşlarımı və xalqımızı 8 Noyabr - Zəfər Günü və 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə təbrik edirəm. Əmin edirəm ki, sələflərimizdən bizə miras qalan Vətən torpaqlarını bundan sonra da göz bəbəyimiz kimi qoruyacağıq”.

Əsgər Rauf Abbasov: Bayramlar içərisində ən mühüm, ən müqəddəs bayramlardan biri də Zəfər Günü bayramıdır. Bunu bizə yaşadan 6 il bundan əvvəl tarixi Qələbəni qazanan ordumuz olub. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan əsgəri 30 ilə yaxın ermənilərin işğalı altında olan torpaqlarımızı azad etdi. 2020-ci il noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Şuşa şəhərinin düşməndən azad edildiyi barədə televiziyadan elan etdiyi gün yadımdadır. Həmin gün xalqımız bayram edirdi. Şuşa Qarabağın tacıdır. Şuşasız Qarabağı təsəvvür etmək mümkün deyil. Ölkəmizə neçə-neçə mədəniyyət xadimi, şair və yazıçıları bəxş etmiş şəhər həm də Azərbaycanın mədəniyyət paytaxtı hesab olunur.



Hazırda qalib Azərbaycan Ordusunun əsgəri kimi azad edilmiş ərazilərimizdə xidmət edirəm. Burada xidmət etmək, sözün əsl mənasında, qürurvericidir. Bu torpaqların azad edilməsi uğrunda xalqımızın neçə-neçə qəhrəman oğlunun qanı tökülüb. Biz şəhidlərin canı-qanı bahasına azad etdiyimiz torpaqları göz bəbəyi kimi qoruyuruq. Düşmənin on illər ərzində işğal altında saxladığı bu yerlərdə daşı-daş üstə qoymayıb. Şəhərlərdən tutmuş kəndlərə qədər hamısı yerlə-yeksan edilib. Azad ediləndən sonra burada bərpa-quruculuq işləri sürətlə davam edir. Vaxtilə ev-eşiklərini tərk etməyə məcbur qalan soydaşlarımız hissə-hissə doğma yurdlarına qayıdırlar. Onlar yeni tikilmiş hər cür şəraiti olan evlərə köçürlər.

Qarşıdan gələn Zəfər Günü və Dövlət Bayrağı Günü ilə bağlı hər kəsi təbrik edirəm”.

Kiçik çavuş Saleh Cəfərov: “8 Noyabr - Zəfər Günü xalqımızın tarixində əbədi yaşayacaq ən möhtəşəm hadisələrdən biridir. Bu şanlı Qələbə Azərbaycan xalqının birliyinin, Müzəffər Ali Baş Komandanın qətiyyətinin və ordumuzun qəhrəmanlığının təntənəsidir. Mənim üçün bu tarixi günün xüsusi əhəmiyyəti var, çünki Vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması istiqamətində həyata keçirilən antiterror əməliyyatında iştirak etmişəm. Döyüş əməliyyatlarında iştirak etmək mənə Vətən qarşısında məsuliyyətin nə qədər böyük olduğunu bir daha göstərdi. Belə məqamlarda hərbi qulluqçunun iradəsi, peşəkarlığı, intizamı və silahdaşlarına inamı xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Ordusunda xidmət etmək mənim üçün böyük şərəf olmaqla yanaşı, üzərimə ciddi məsuliyyət də qoyur. Zəfərin qürurunu, bayrağımızın əzəmətini yaşadırıq. Daim döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, bilik və bacarıqların təkmilləşdirilməsi hər bir hərbi qulluqçunun əsas vəzifələrindəndir. Azərbaycan Ordusunun sıralarında xidmət etməyimlə qürur duyur, Vətənə layiqli xidmət göstərməyi özümə ən böyük mənəvi borc hesab edirəm. Digər əlamətdar günlər kimi, Dövlət Bayrağı Günü də mənim üçün xüsusi məna daşıyır. Üçrəngli bayrağımız müstəqilliyimizin, milli birliyimizin və dövlətçiliyimizin müqəddəs rəmzidir. Əslən Göygöl rayonundanam, lakin Vətənimizin hər qarışını öz doğma yurdum hesab edirəm. Bayrağımızın azad torpaqlarımızda dalğalanması hər birimizə sonsuz qürur və sevinc bəxş edir. Mənim üçün bu bayrağın keşiyində dayanmaq, onun şərəfini qorumaq və dövlətimizə sədaqətlə xidmət etmək böyük xoşbəxtlikdir. Arzu edirəm ki, üçrəngli bayrağımız daim yüksəklərdə dalğalansın, xalqımız sülh və əmin-amanlıq şəraitində yaşasın”.

Çavuş Rəsul Məmmədli: “8 Noyabr - Zəfər Günü mənim üçün həm böyük qürur, həm də Vətən uğrunda göstərilən fədakarlıqları xatırladan əlamətdar tarixdir. Vətən müharibəsində və antiterror əməliyyatında iştirak etmiş hərbi qulluqçu kimi bu tarixi Qələbənin necə böyük mübarizə və qəhrəmanlıq bahasına əldə olunduğunu yaxşı anlayıram. Vətən müharibəsi zamanı döyüş əməliyyatlarında iştirak etmək həyatımın ən yaddaqalan və məsuliyyətli mərhələlərindən biri olub. Həmin döyüşlərdə yaralanmağım da Vətənə xidmət yolunda keçdiyim sınaqlardan biridir. Buna baxmayaraq, Vətənə bağlılığım və hərbi xidmətə sədaqətim mənim üçün hər zaman dəyişməz olub. Döyüş meydanında insan silahdaşlarının dəyərini, qarşılıqlı etimadın və birliyin əhəmiyyətini daha dərindən anlayır. Bu gün xidmətimi davam etdirməkdən, Azərbaycan Ordusunun sıralarında olmaqdan qürur duyuram. Hesab edirəm ki, hərbi qulluqçu daim yüksək hazırlığı, möhkəm iradəsi və intizamı ilə seçilməlidir.






9 Noyabr - Dövlət Bayrağı Günü də mənim üçün Vətənə sədaqətin və milli qürurun ifadəsidir. Üçrəngli bayrağımız xalqımızın azadlığını, müstəqilliyini və dövlətçilik ənənələrini özündə təcəssüm etdirir. Onun azad torpaqlarımızda dalğalanması hər bir Azərbaycan vətəndaşı kimi məni də qürurlandırır. Bayrağımızın şərəfini qorumaq, Vətənimizin təhlükəsizliyinin təmin olunmasında iştirak etmək hər bir hərbi qulluqçunun müqəddəs borcudur. Mən Azərbaycan Ordusunda xidmət etməyi həyatımın ən böyük şərəflərindən biri hesab edirəm. İnanıram ki, xalqımızın birliyi, dövlətimizin qüdrəti və ordumuzun gücü sayəsində üçrəngli bayrağımız daim ucalarda dalğalanacaq”.

Azərbaycan Ordusunda gənc əsgərlərin qəbulu prosesi uğurla həyata keçirilib







Güclü ordu dövlətin təhlükəsizliyinin və müstəqilliyinin əsas təminatlarından biridir. Müharibənin bitməsinə baxmayaraq, bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizdə ordu quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Artıq dünyada qalib Azərbaycan Ordusu müasir silah və texnika təchizatı, peşəkar şəxsi heyəti, yüksək döyüş hazırlığı və zəngin hərbi təcrübəsi ilə seçilir. Ordumuzun qüdrətinin qorunub saxlanılması və daha da artırılması istiqamətində həyata keçirilən tədbirlər şəxsi heyətin hazırlığına və hərbi xidmətin təşkilinə də xüsusi diqqət yetirilməsini zəruri edir. Bu baxımdan gənclərin həqiqi hərbi xidmətə çağırılması və hərbi hissələrdə qəbul prosesinin yüksək səviyyədə təşkili mühüm əhəmiyyət daşıyır. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Ordusunun təlim hərbi hissələrində gənc əsgərlərin qəbulu prosesi uğurla başa çatıb.



Yeni çağırışçıların qarşılanması, qeydiyyatı, tibbi və psixoloji müayinəsi, eləcə də ilkin hazırlıq tədbirlərini işıqlandırmaq məqsədilə "N" hərbi hissəsinə yollandıq.

Hərbi hissədə bizi müşayiət edən zabit polkovnik-leytenant Əli Hüseynov gənc əsgərlərin qəbulu ilə bağlı həyata keçirilən tədbirlər, yaradılmış şərait və prosesin təşkili barədə ətraflı məlumat verdi. O bildirdi ki, çağırışçıların qarşılanmasından başlayaraq, onların ilkin hazırlıq mərhələsinədək bütün fəaliyyətlər müəyyən edilmiş qaydada təşkil olunub. "Onların hərbi hissəyə daxil olduğu ilk andan etibarən bütün qəbul tədbirləri nəzarətdə saxlanılır. Əsas diqqət gənclərin tibbi və psixoloji vəziyyətinin öyrənilməsinə və hərbi mühitə uyğunlaşmasına yönəldilir. Eyni zamanda, ilkin hazırlıq məşğələlərinin keyfiyyətli təşkili və şəxsi heyətə göstərilən qayğı Müdafiə Nazirliyi rəhbərliyinin və komandanlığın diqqət mərkəzindədir. Əsas məqsədimiz yeni çağırılan gənc əsgərlərin Azərbaycan Ordusunun sıralarında xidmətə layiqli şəkildə başlamasını təmin etməkdir".

Zabitin müşayiəti ilə qəbul prosesinin ilk mərhələsinə, yəni, nəzarət-buraxılış məntəqəsinə yollanır, burada təşkil edilmiş qəbul prosesi ilə tanış oluruq. Hərbi xidmətə yeni çağırılmış gənclər burada qarşılanır, müvafiq sənədlər yoxlanılır, üzərlərində olan şəxsi əşyalara baxış keçirilir. Hərbi hissəyə gətirilməsinə icazə verilməyən əşyalar müəyyən edildikdə, onlar müvafiq qaydada təhvil alınaraq saxlanılması üçün aidiyyəti üzrə təqdim edilir. Bütün bu tədbirlərin keçirilməsində əsas diqqət qəbul prosesinin nizamlı təşkili və hərbi hissənin daxili qaydalarına riayət olunması məqsədi daşıyır.



Nəzarət-buraxılış məntəqəsindəki prosedurlar başa çatdıqdan sonra çağırışçılar növbəti mərhələdə qeydiyyata alınır, onlarla fərdi psixoloji söhbətlər aparılır və müvafiq testlər keçirilir. Mayor Rəşad Bağırzadə bildirdi ki, gənc əsgərlərlə psixoloji işin təşkili onların hərbi mühitə uyğunlaşmasında mühüm rol oynayır. "Müvafiq təlimatların tələblərinə uyğun olaraq hər bir çağırışçı ilə fərdi söhbətlər aparılır, psixoloji testlər keçirilir. Bu zaman onların fərdi xüsusiyyətləri, emosional vəziyyəti və hərbi xidmətlə bağlı düşüncələri öyrənilir. Söhbət zamanı gənclərin fikirlərini sərbəst ifadə etmələrinə şərait yaradılır. Onlara hərbi kollektivdə qarşılıqlı hörmətin, yoldaşlığın və nizam-intizamın əhəmiyyəti izah olunur. Psixoloji dayanıqlığın qorunması məqsədilə müvafiq maarifləndirici və dəstəkləyici tədbirlər həyata keçirilir. Əsas məqsədimiz hər bir gəncin mənəvi-psixoloji hazırlığını diqqətdə saxlamaq və onun xidmətə uyğunlaşmasına kömək etməkdir".

Yeni gələn çağırışçıların tibbi müayinədən keçirilməsi qəbul prosesinin vacib mərhələlərindən biridir. Hər bir gəncin sağlamlıq vəziyyətinə fərdi qaydada yanaşılır və müayinələr müvafiq ixtisaslı mütəxəssislər tərəfindən aparılır. Bu zaman onların ümumi sağlamlıq vəziyyəti, mövcud tibbi göstəriciləri və şikayətləri nəzərə alınır. Eyni zamanda, gənclərə şəxsi gigiyena və sağlam həyat tərzinin əhəmiyyəti barədə tövsiyələr verilir. Burada əsas məqsəd hər bir əsgərin sağlamlığını diqqətdə saxlamaq və ona zəruri tibbi dəstəyi göstərməkdir.

Tibbi və psixoloji qəbul tədbirlərindən sonra gənc əsgərlərin hərbi geyim və digər təminat növləri ilə təchiz olunması həyata keçirilir. Çağırışçılar mövsümə uyğun geyim formaları, ayaqqabı və zəruri ləvazimatlarla təmin edilirlər. Hərbi formanı ilk dəfə geyinən gənclərin simasında sevinc və qürur hissini görmək mümkündür. Onlar üçün bu forma artıq yeni həyat mərhələsinin, Vətən qarşısında müqəddəs övladlıq borcunu ödəmə kimi məsuliyyətli vəzifənin rəmzidir.





Əşya anbarına cavabdeh hərbi qulluqçu gizir İlqar Hüseynov söhbətimiz zamanı bildirdi ki, çağırışçılar müəyyən edilmiş normalara uyğun geyimlə təmin edilirlər. "Hər bir hərbi qulluqçuya ölçülərinə uyğun geyim və ayaqqabı təqdim olunur. Bununla yanaşı, gündəlik xidmət və məişət ehtiyacları üçün nəzərdə tutulan digər ləvazimatlar da verilir. Təqdim olunan geyim və əşyaların düzgün istifadəsi, saxlanılması barədə gənclərə məsləhət verilir".

Artıq bütün yoxlamalardan keçmiş, bütün təminat növləri ilə tam təchiz olunmuş gənc əsgərlərin hazırlıq prosesi başladı. Təlim hərbi hissəsində onların ilkin hazırlıq məşğələlərinin təşkilini də izlədik. Bu mərhələdə çağırışçılar hərbi xidmətin gündəlik qaydaları, daxili intizam, təhlükəsizlik tələbləri və hərbi nizamnamələrin müddəaları ilə tanış oldular. Hazırlıq proqramına uyğun olaraq fərdi və kollektiv məşğələlər keçirildi.

Kapitan Nadir Quliyev qeyd etdi ki, ilkin hərbi hazırlıq gənc əsgərlərin gələcək xidmət fəaliyyətinin əsasını təşkil edir. Bu mərhələdə hər bir çağırışçının hərbi xidmətin xüsusiyyətlərini mənimsəməsi, intizam qaydalarını öyrənməsi və üzərinə düşən vəzifələri dərk etməsi vacibdir. Gənclərə hərbi nizamnamələrin tələbləri, təhlükəsizlik qaydaları və hərbi qulluqçuların gündəlik fəaliyyətinin əsasları izah olunur. Fərdi hazırlıq zamanı hər bir əsgərin bilik və bacarıqlarının inkişafına xüsusi diqqət yetirilir".

Növbəti fəaliyyət gənc əsgərlərdə ilkin nizam-intizamın formalaşması, komandaların düzgün yerinə yetirilməsi, eləcə də kollektiv fəaliyyət vərdişlərinin aşılanması baxımından mühüm əhəmiyyət daşıyan sıra hazırlığı məşğələsidir. Məşğələlər zamanı çağırışçılara sıra duruşu, dönmə hərəkətləri, sıra ilə yerdəyişmə, rəisə yaxınlaşma və hərbi salamvermə qaydaları öyrədilir. İlk baxışdan sadə görünən bu hərəkətlər, əslində, hər bir hərbi qulluqçuda dəqiqliyin, intizamın və məsuliyyət hissinin formalaşmasına xidmət edir.

Çavuş Ağalı Kəsəmənli bildirdi ki, sıra hazırlığı hər bir hərbi qulluqçunun mənimsəməli olduğu ilkin hərbi bilik və bacarıqlardandır. "Bu məşğələlərdə əsgərlərə sıra duruşu, dönmələr, yerdəyişmələr və komandaların düzgün icrası öyrədilir. Hər bir hərəkətin düzgün icrası üçün komandaların mahiyyəti ətraflı izah olunur. Məşğələlər zamanı fərdi səhvlər müəyyən edilir və onların aradan qaldırılması üçün məsləhətlər veririk. Sıra hazırlığı gənclərdə dəqiqlik, çeviklik və kollektiv məsuliyyət kimi keyfiyyətlərin formalaşmasına kömək edir".

Sıra hazırlığından sonra diqqətimizi gənc əsgərlərin fiziki hazırlıq məşğələlərinə yönəltdik. Fiziki hazırlıq hərbi qulluqçunun ümumi hazırlığının mühüm tərkib hissəsidir. Gənc əsgərlərlə keçirilən məşğələlər zamanı onların fiziki imkanları və hazırlıq səviyyələri nəzərə alınır. Məşğələlərdə əsas diqqət fiziki dözümlülüyün, çevikliyin və ümumi sağlamlığın möhkəmləndirilməsinə yönəldilir.

(Ardı 8-ci səhifədə)

Azərbaycan Ordusunda gənc əsgərlərin qəbulu prosesi uğurla həyata keçirilib



(Əvvəli 7-ci səhifədə)

Məşğələlərdən əvvəl müvafiq hazırlıq və isinmə hərəkətləri yerinə yetirilir. Əsgərlərə fiziki hazırlıq zamanı təhlükəsizlik qaydalarına riayət etməyin vacibliyi də izah olunur. Fiziki hazırlıq hərbi xidmətin tələblərinə uyğunlaşmaqla yanaşı, gənclərdə iradə, əzmkarlıq və özünəinamın möhkəmlənməsinə də kömək edir.

İlkin hazırlıq məşğələləri ilə yanaşı, gənc əsgərlərin gündəlik sosial-məişət təminatı da diqqət mərkəzində saxlanılır. Yeməkxana kompleksində şəxsi heyətin qidalanması üçün yaradılmış şəraitlə də tanış olduq. Çağırışçıların keyfiyyətli, bol kalorili, əsasən milli xörəklərdən ibarət qida ilə təminatına xüsusi diqqət yetirilir. Menyuda müxtəlif tərəvəzlərdən hazırlanan yeməklərə də yer verilir. Qidaların saxlanılması, hazırlanması və təqdim olunması zamanı sanitar-gigiyenik normalara riayət edilir.

Yeməkxana rəisi baş gizir Cavid Kazımov qeyd etdi ki, şəxsi heyətin keyfiyyətli və normativlərə uyğun qidalanmasının təşkili gündəlik fəaliyyətin əsas istiqamətlərindəndir. "Hərbi xidmətə yeni başlayan gənc əsgərlərin uyğunlaşma dövründə qida təminatına diqqətlə yanaşılır. Onların qidalanması müəyyən edilmiş normalara uyğun təşkil edilir və menyuda milli mətbəximizə məxsus xörəklərə geniş yer verilir. Yeməklərin hazırlanması zamanı məhsulların keyfiyyətinə və sanitar-gigiyenik tələblərə xüsusi diqqət yetirilir. Yeməkxanada təmizlik və səliqə-sahmanın qorunması daim nəzarətdə saxlanılır".

Gənc əsgərlərin yerləşdirildiyi yataqxana və məişət kompleksində onların istirahəti, şəxsi gigiyenası və gündəlik məişət ehtiyaclarının qarşılanması üçün yaradılmış şəraitlə tanış olduq. Yataq yerlərinin səliqəli saxlanılması, şəxsi əşyaların müəyyən edilmiş qaydada yerləşdirilməsi və ümumi təmizliyin qorunması diqqət mərkəzindədir. Gənc əsgərlərə yataqxanada davranış, şəxsi gigiyena və məişət qaydaları barədə müvafiq məlumatlar da verildi.

Hərbi hissədə yaradılmış şərait, təşkil olunan qəbul və hazırlıq tədbirləri ilə tanış olduqdan sonra gənc əsgərlərlə də həmsöhbət olmaq imkanı tapdıq. Onların hərbi xidmətə başlaması ilə bağlı təəssüratları, Vətən qarşısında daşıdıqları məsuliyyət və Azərbaycan Ordusunun sıralarında xidmət etməkdən duyduqları qürur hissi diqqətimizi cəlb etdi.

Əsgər İnqilab Kərimov: "Azərbaycan Ordusunun sı-



ralarına daxil olmaq mənim üçün böyük şərəf və qürurdur. Bu gün Vətən qarşısında övladlıq borcumu yerinə yetirmək üçün buradayam. Daşıdığım hərbi formanın mənə böyük məsuliyyət həvalə etdiyini yaxşı anlayıram. Komandirlərimizin verdiyi tapşırıqları layiqincə yerinə yetirməyə, hərbi bilik və bacarıqlarımı artırmağa çalışacağam. Burada qazanacağım dostluqlar və təcrübələr mənim üçün çox dəyərli olacaq. İnanıram ki, xidmətimi şərəflə başa vuraraq ailəmin yanına alnıaçıq qayıdacağam".

Əsgər Vüsal Kərimov: "Bu gün Azərbaycan Ordusunda xidmət etmək mənim üçün həyatımın ən yaddaqalan hadisələrindən biridir. Vətənimi-



zin müdafiəçisi olmaq hər bir Azərbaycan gəncinin qürur duymalı olduğu müqəddəs vəzifədir. Mən də bu şərəfli missiyanın bir parçası olmaqdan məmnunam. Hərbi hissəyə gəldiyim ilk gündən burada yaradılmış şərait və bizə göstərilən diqqət məndə xoş təəssürat yaradıb. Əsgər yoldaşlarımla birlikdə hərbi həyatın qaydalarını öyrənir, yeni biliklərə yiyələnirik. Xidmət müddətində intizamlı olmağa və üzərimə düşən vəzifələri məsuliyyətlə yerinə yetirməyə çalışacağam. Ən böyük arzum Azərbaycan əsgəri adına layiq olmaqdır".

Əsgər İbrahim İsmayılov: "Bu gün burada olmağım Vətənə olan sevgimin və sədaqətimin ifadəsidir. Hərbi xidmət insanın həyatında mühüm təcrübə qazandığı, məsuliyyət və iradə tələb edən bir mərhələdir. Mən də bu müddət ərzində öz üzərimdə çalışacaq, verilən bilikləri dərindən mənimsəyəcəyəm. Komandirlərimizin tövsiyələrinə əməl edərək hərbi xidmətin qaydalarını öyrənəcəyəm. Vətənimizin ərazi bütövlüyünün və suverenliyinin qorunması hər birimizin müqəddəs borcudur. Mən də bu borcu layiqincə yerinə yetirmək üçün əlimdən gələni edəcəyəm".

Əsgər Elcan Qaraşov: "Hərbi xidmətə gələcəyim günü böyük həyəcanla gözləyirdim. Bu gün arzum ger-



çəkləşib və Azərbaycan Ordusunun əsgəri adını daşıyıram. Burada olarkən hərbi kollektivin birliyini, nizam-intizamı və qarşılıqlı hörməti daha yaxından hiss edirəm. Əsgər yoldaşlarımla birlikdə yeni biliklər öyrənmək, fiziki və mənəvi cəhətdən möhkəmlənmək mənə böyük ruh yüksəkliyi verir. Ailəm də mənimlə fəxr edir və onların etimadını doğrultmaq üçün çalışıram. Vətənə xidmət etməkdən qürur duyuram və inanıram ki, bu məsuliyyətin öhdəsindən layiqincə gələcəyəm. Xidmətimi başa vurduqdan sonra qazandığım təcrübəni həyatımın ən dəyərli xatirələrindən biri kimi qoruyacağam".



Əsgər Sahib İsgəndərov: "Bu gün daşıdığım hərbi forma mənim üçün Vətənə sədaqətin və məsuliyyətin rəmzidir. Azərbaycan Ordusunun sıralarında xidmət etmək mənə böyük qürur hissi yaşadır. Burada olduğum ilk gündən hərbi xidmətin nə qədər məsuliyyətli və şərəfli bir vəzifə olduğunu daha dərindən dərk edirəm. Bizə göstərilən diqqət və qayğı, yaradılmış şərait xidmətə daha böyük həvəslə başlamağımıza kömək edir. Qarşıma qoyduğum əsas məqsəd hərbi biliklərə yiyələnmək, intizamlı və nümunəvi əsgər olmaqdır. Vətənimizin müdafiəsi naminə üzərimə düşən vəzifəni hər zaman vicdanla yerinə yetirməyə hazıram. Əminəm ki, bu gün başladığım xidmət yolunu böyük qürur və şərəflə başa vuracağam".

"N" hərbi hissəsində gənc əsgərlərin qəbulundan başlayaraq, onların ilkin hazırlığına, gündəlik təminatına və hərbi kollektivə uyğunlaşmasına qədər həyata keçirilən proseslərlə tanış olduq. Gördüklərimiz bir daha göstərir ki, hərbi xidmətin ilk günündən etibarən şəxsi heyətin qəbuluna, sağlamlığına, mənəvi-psixoloji vəziyyətinə, hazırlığına və sosial-məişət təminatına xüsusi diqqət yetirilir.

Azərbaycan Ordusunun sıralarına yeni qoşulan gənclərin Vətənə övladlıq borcunu ödəmək istəkləri, üzərlərinə düşən vəzifəni dərk etmələri və hərbi formaya bəslədikləri qürur hissi bu prosesin mənəvi tərəfini daha aydın nümayiş etdirir. Hərbi xidmətə atılan ilk addımlardan etibarən onların qarşısında bir məqsəd dayanır: Azərbaycan əsgəri adını şərəflə daşımaq. Əminik ki, gənc çağırışçılar sələflərinin yolunu uğurla davam etdirəcək, Vətənə sədaqətlə xidmət edəcək və xalqımızın etimadını doğruldacaqlar.

Baş leytenant
Elçin İMANOV
"Azərbaycan Ordusu",
fotolar
kiçik gizir
Coşqun CƏFƏROVUNDUR

İdman

Zəfər Günü münasibətilə Gəncədə veloyürüş keçirilib




8 Noyabr - Zəfər Günü münasibətilə Gəncədə, Heydər Əliyev Park-Kompleksində Gəncə şəhər İcra Hakimiyyəti, Gəncə-Daşkəsən Regional Gənclər və İdman İdarəsi və Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) birgə təşkilatçılığı ilə veloyürüş keçirilib.

Startdan əvvəl Dövlət Himni səsləndirilib, Vətən uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Respublika Olimpiya Velosiped Məktəbinin (ROEQİUGVM) Gəncə bölməsinin idmançıları, tələbə və könüllülərin iştirak etdiyi veloyürüş Zəfər Tağının qarşısında start götürüb və orada da yekunlaşıb.

Tədbirin sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

Azərbaycan parakarateçisi Avropa çempionatında qızıl medal qazanıb



Azərbaycan paralimpiyaçısı Aysel Əhmədli Bolqarıstanın paytaxtı Sofiyada keçirilən 16-cı "WSF - şotokan karate" üslubu üzrə Avropa çempionatında qızıl medal qazanıb.

İki gün davam edən yarışda parakarate üzrə K10 kateqoriyasında mübarizə aparan idmançı bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Azərbaycan karateçiləri Sofiyada 7 qızıl medal qazanıblar



Bolqarıstanın paytaxtı Sofiya şəhərində oktyabrın 31-dən noyabrın 1-dək 16-cı "WSF - şotokan karate" üslubu üzrə Avropa ölkələrinin çempionatı keçirilib.

Yarışda Azərbaycan Karate Federasiyasının (AKF) deflimpiya və parakarate üzrə yığma komandaları, eləcə də digər idmançılarımız uğurla çıxış ediblər.

Çempionatda ölkəmizi təmsil edən idmançılar müxtəlif yaş və çəki kateqoriyaları üzrə mübarizə apararaq yüksək nəticələr əldə ediblər.

Parakarate yarışlarında Aysel Əhmədli bütün rəqiblərini geridə qoyaraq qızıl medala sahib olub.

Deflimpiyaçılar arasında keçirilən yarışlarda isə Hikmət Ağayev, 75 kiloqram çəki dərəcəsində Elmin Hüseynli və kata üzrə Aytən Qədirova qızıl medal qazanıblar.

16-17 yaşlı idmançılar arasında 61 kiloqram çəki dərəcəsində Yusif Əzimzadə, böyüklər arasında 60 kiloqramda Nizaməddin Əzimzadə və 75 kiloqramda Ələkbər Əlizadə gümüş medala layiq görülüblər.

Elnur Qasımzadə və Fəqan Yasimov isə 67 kiloqram çəki dərəcəsində bürünc medal qazanaraq yığmamızın uğurlarına töhfə veriblər.

Şotokan karate üzrə fərdi yarışlarda da Azərbaycan təmsilçiləri uğurlu nəticələr əldə ediblər. Böyüklər arasında "Şobu Nihon" kateqoriyasında 75 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan Elçin Şiriyev qızıl medal qazanıb. Eyni çəki dərəcəsində Ramin Mazanov, kata üzrə isə Nihad Məmmədzadə gümüş medala sahib olublar.

Gənclər arasında 16-17 yaş kateqoriyasında 68 kiloqram çəki dərəcəsində çıxış edən Əbülfəz Rəfiyev də qızıl medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib.

Komanda yarışlarında da Azərbaycan təmsilçiləri fərqləniblər. Kişilərdən ibarət yığma komandamız final görüşündə Türkiyə idmançılarına qalib gələrək qızıl medal qazanıb.

AZƏRTAC-ın materialları əsasında

Gizir Əhmədov Vüsal Rüfət oğluna verilmiş SQ № 0022372 nömrəli şəxsi vəsiqə blankı itdiyi üçün etibarsız sayılır.

Məmmədyarov Tərlan Məmmədyar oğluna verilmiş MV № 046267 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Redaktor
mayor
Ceyhun CƏFƏRLİ

Telefon
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi:
(012) 404-76-22

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
2 saylı xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
baş leytenant
Elçin İMANOV

Lisenziya № 361
Sifariş № 925
Nüsxə 3653